

Ali təhsilli sadə peşə adamıdır. Universiteti fərqlənmə diplomu ilə bitirib, İstanbulda, Londonda təhsil alıb. Amma təhsil aldığı sahəyə yox, məhz sevdiyi, həvəs göstərdiyi sahəyə yönəlib. Müsahibimiz hazırda öz evində kiçik biznesi ilə məşğul olur. Tort bişirir, kağızdan göz oxşayan müxtəlif suvenirlər düzəldir. İstedadı savadına qalib gəlib və o, Allah vergisi olan istedadının ardınca gedib.

# Ali təhsilli sadə peşə adamı

## Tünzalə Yusubova: ”Hər bir insanın içində mütləq qabiliyyət var”

**"SADƏ PEŞƏ ADAMI" RUBRİKAMIZIN QONAĞI TÜNZALƏ YUSUBOVADIR.**

Əvvəlcə müsahibimizi tanıyaq.

Hələ məktəb vaxtlarından özünü daima inkişaf etdirməyi, maraq dairəsinə yeni hobbilər əlavə etməyi, xarici dillər öyrənməyi sevir. Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Türkiyə bölümünü fərqlənmə diplomu ilə bitirib. Elə ilk işinə də universitetdə oxuduğu müddətdə başlayıb. Bundan başqa, İstanbul Aydın Universiteti və London Meridian College-də təhsil alıb. Hazırda könüllü dostlarla birlikdə qurduqları Xeyriyyə Cəmiyyətinin üzvüdür.

### "ATAMIN ARZUSUNU YERİNƏ YETİRDİM"

Atasının arzusunu yerinə yetirib və məktəbin nümunəvi şagirdlərindən olub. Üstəlik tələbə olarkən də həm oxuyub, həm də işləyib: ”Mən 8-ci sinifdə oxuyarkən atam vəfat etdi. O, həmişə arzulayırdı ki, övladları yaxşı təhsil alsın, ali məktəbi fərqlənmə diplomu ilə bitirsin. Atamın bu arzusunu yerinə yetirmək üçün bacımla birlikdə təhsil üzərində ciddi şəkildə çalışdıq. Mən Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin türk dili və ədəbiyyatı bölməsinə daxil oldum, oranı fərqlənmə diplomu ilə bitirdim. Tələbə ola-ola həm oxuyurdum, həm də işləyirdim. İngilis dilini bildiyim üçün xarici şirkətlərdə çalışırdım. Universitetdə yaxşı tələbələrdən biri olduğum üçün məni praktika üçün İstanbula göndərdilər”.



### "OXUMUSANSA, ÖZ SAHƏNDƏ İŞLƏMƏLİSƏN"

O, bununla kifayətlənməyib və ingilis dilini təkmilləşdirmək üçün xarici ölkəyə getməyə qərar verib: ”İngilis dilini daha da təkmilləşdirmək üçün xaricə getməyə qərar verdim və Londona yola düşdüm. Xüsusi istedadımın olduğuna əmin idim və bu işlə məşğul olmağa da məhz Londonda qərar verdim. Orada işləməklə yanaşı, fərqli əl işləri, şirniyyat mağazalarını gəzirdim. Bütün bunlar məni özünə çox çəkdi, fikirləşdim ki, niyə əl qabiliyyətimi tort bişirmək sahəsində sınamayım ki? Həm də anam həmişə evdə şirniyyat bişirir deyə, mənim bu iş barədə məlumat və həvəsim vardı. Londondan Bakıya qayıdanda özümə tort bişirmək üçün müxtəlif qablar aldım. Evdə deyəndə ki, belə bir iş görmək istəyirəm, razı olmadılar. Anam dedi ki, yox, ali təhsil almısansa, öz sahən üzrə işləməlisən. Ali təhsil almaq hamı üçün vacibdir. Amma ali təhsilim var və mən həmişə bir xətt üzrə getməliyəm kimi bir fikirlə heç vaxt razılaşmamışam. Həmişə ətrafımda məni tanıyan insanlar da deyirdi ki, sənin potensialın var və sən qabağa getməlisən. Mənim ən böyük dəstəkçim bacımdır. O mənə çox motivasiya verir, həvəsdən düşməyə qoymur. Bildiyim əl işi sahələri çoxdur. İlk əl işimə toxumaqla başlamışam. Sonra ətrafımdakı insanlardan kim istəyirdisə, kimin marağı var idisə, onlara öyrətdim. Allah qismət edərsə, Sığınacaq evindəki qadınları, qızları da öyrətmək istəyirəm. Çünki bu öyrənəcəkləri qabiliyyət nə vaxtsa onlara mütləq lazım olacaq. Təkcə satış xarakterli yox, özləri üçün və ya sevdikləri üçün nəsə toxuya bilərlər”.



### "HEÇ KİM BACARIQSIZ DEYİL"

Yuxarıda da qeyd etdiyimiz kimi, həmsöhbətimizin tort bişirməkdən əlavə xüsusi əl işləri də var. O, kağızdan, qəzetdən, muncuqdan, salfetkadan, fərqli materiallardan suvenirlər düzəldir və öz evində də məhz bu suvenirlərdən istifadə edir. Düşünür ki, hər bir insanın xüsusi istedadı var, sadəcə, bunu inkişaf etdirmək lazımdır: ”Əsasən tort sifarişləri qəbul etsəm də, xüsusi əl işlərim də var. Hər bir insanın hobbisi olduğu kimi, mənim də hobbim əl işlərimdir. Fərqli ideyalar ortaya qoyub nə isə düzəltməyə çox maraqlıyam. Həvəsim olduğu üçün özüm öz üzərimdə işləyib bunları öyrənmişəm. Suvenirləri bəzən özüm istədiyim üçün, bəzən də sevdiyim insanları sevindirmək üçün edirəm. Yaxşı da alınır. Ümumiyyətlə, bir şeyi gözəlləşdirməyi, dəyişik və yaradıcı ideyaları çox sevirəm, bəzəməyi də, həmçinin. Hər bir insanın içində mütləq qabiliyyət var. İnanmıram ki, kimsə anadangəlmə bacarıqsız olsun. Sadəcə, onu inkişaf etdirmək lazımdır. Olub ki, mən bildiklərimi çox adama öyrətmişəm, amma tez götürən də var, bacarmayıb səliqəsiz edən də var. Mən də elə şeyi sevmirəm. Mənim üçün bütün əl işlərimdə hətta 1 millimetr də çox önəmlidir. Bilirsiniz, həm də genetik xüsusiyyət mütləqdir. Eyni tortu və ya yeməyi eyni reseptlə hazırlaya bilərlər. Amma mütləq birində daha ləzzətli çıxacaq. Məsələn, mənə bu qabiliyyət anamdan keçib”.



### "XARİCDƏN İDEYA GÖTÜRMƏLİYİK"

Tünzalə deyir ki, şirniyyat bişirərkən aldığı zövqü, hiss etdiyi xoşbəxtliyi heç bir yerdə, işdə tapa bilmir: ”Bişirdiyim tortlarla bağlı da həmişə müsbət rəylər alıram, təriflər eşidirəm. Bişirdiyim tortlar, əl işlərim mənimçün çox doğmadır. Tortlarımın şəkillərini sosial şəbəkələrdə bəyənirlər. Yazanda ki əl işiniz çox gözəldir, mən sifariş alacağımı düşünməkdən çox, deyilən xoş sözə sevinirəm. İnsanın işinə qiymət verilməsi onu daha da həvəsləndirir”.

Həmsöhbətimiz düşünür ki, bizim insanlar dəbdəbəni sevirlər. Amma xaricdən ideya götürsələr, daha yaxşı olar: ”Londonda olanda bir qızın toyunda iştirak etmişdim. Orada toy üçün tort sifarişi verilmişdi. 2 mərtəbəli sadə tort idi. Üstünə qızılı rəngdə ingiliscə ”Biz evləndik” yazılmışdı. Amma bizimkilər o cür tortu bəyənməzlər. Çünki bizdə çoxmərtəbəli və üstündə çoxlu dizaynı olan tortlar dəbdədir. Amma sadəliyin özü ən böyük gözəllikdir”.

**Aygün ƏZİZ**